AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
İQTİSADİYYAT İNSTİTUTU

*Əlyazması hüququnda*

**HEYDƏROV XANLAR BƏYLƏR OĞLU**

# AQRAR SAHƏDƏ SOSİAL-İQTİSADİ İDARƏETMƏNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

**İxtisas: 5312.01- "Sahə iqtisadiyyatı"**

**İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

# A V T O R E F E R A T I

**BAKI – 2016**

Dissertasiya işi Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunda yerinə yetirilib.

**Elmi rəhbər:** iqtisad elmləri doktoru, professor
**İsa Hüseyn oğlu Alıyev**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru, professor
**Rəsul Ənvər oğlu Balayev**

iqtisad üzrə fəlsəfə doktoru
**Vüqar Ağamusa oğlu İsmayılov**

**Aparıcı təşkilat:** Azərbaycan Dövlət İqtisad Universitetinin "İqtisadiyyatın tənzimlənməsi" kafedrası

Müdafiə 12 fevral 2016-cı il saat $16^{00-}$da Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutu nəzdindəki D.01.181 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1143, Bakı şəhəri, Hüseyn Cavid prospekti 31, Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutu.

Dissertasiya işi ilə Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi kitabxanasında tanış olmaq olar.

Avtoreferat 7 yanvar 2016-cı il tarixində göndərilmişdir.

D.01.181 Dissertasiya Şurasının Elmi katibi
iqtisad üzrə fəlsəfə doktoru, dosent **F.Q.MUSAYEVA**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Hər hansı təsərrüfatın və ya təşkilatın fəaliyyət prosesi qarşıda duran məqsədin dəqiq müəyyən edilməsi, məqsədə nail olmaq üçün fəaliyyətin planlaşdırılması və fəaliyyəti reallaşdıran subyektlərin motivasiyası, həmçinin fəaliyyət üzərində daimi nəzarətin həyata keçirilməsi ilə müşaiyət olunur. Bu proseslərin reallaşması isə daim bu və ya digər qərarın qəbul edilməsi zərurətini yaradır. Fəaliyyətin son nəticəsi isə, əksər hallarda, mümkün variantlardan hansının qəbul edilməsindən daha çox asılı olur.

Beləliklə, təşkilatın qarşıya qoyduğu məqsədi müəyyən etmək və ona nail olmaq üçün planlaşdırma, təşkilati, motivasiya və nəzarət proseslərini ardıcıl olaraq həyata keçirmək zərurəti yaranır. Məhz bu fəaliyyətlərin ardıcıl yerinə yetirilməsi idarəetmə prosesində reallaşır. İdarəetmənin əsas mahiyyəti ondan ibarətdir ki, mövcud ehtiyatlardan səmərəli istifadə edilərək qoyulan məqsədə nail olunsun. İdarəetmə obyektlərindən biri də aqrar sahədir. İdarəedilən bir sistem kimi aqrar sahənin idarəetmə subyekti isə dövlətdir.

Dövlət iqtisadiyyatın digər sahələrinə olduğu kimi kənd təsərrüfatı sahəsini də müxtəlif metodlarla və mexanizmlərlə idarə edir. Belə idarəetmə dövlətin daha çox tənzimləmə funksiyası kimi önə çıxır. Aqrar sahənin dövlət tərəfindən idarə edilməsi bu sahənin liberallaşması ideyası ilə əkslik təşkil etmir. Əksinə, aqrar sahədə həyata keçirilən liberal islahatların uğurlu olması bu sahənin idarəedilməsinin nə dərəcədə uğurlu təşkilindən asılıdır. Belə ki, aqrar sahədə də iqtisadiyyatın digər sahələrində olduğu kimi, bazar münasibətlərinin iqtisadi qanunları təsir göstərir, amma bu sahədə bəzi özünəməxsusluq var. Aqrar sahənin əsas özünəməxsusluğu bundan ibarətdir ki, bu sahədə iqtisadi konyunktura ilə təbii-iqlim şəraitinin qarşılıqlı təsiri həmişə özünü göstərir. Kənd təsərrüfatı sektoru üçün təbii – iqlim şəraiti onun inkişafının ən mühüm amillərindən biridir. Bu amil ərazidə hansı məhsulun yetişdirilməsinə, bu məhsulun keyfiyyətinə, gəlirlərə, ərazinin məskunlaşmasına və sair təsir göstərdiyindən aqrar sektora dövlət yardımı zəruridir.

Müxtəlif ölkələrdə aqrar sektorun dövlət idarəetməsi dərəcəsi müxtəlif olduğundan aqrar sektorda liberal islahatlar da eyni dərəcədə uğur qazanmır. Hətta əksər hallarda islahatın ilk dövrlərində ciddi problemlər yaradır. Çünki idarəetmənin xarakteri və səviyyəsi istehsalın səviyyəsinə və istehsal olunan malların keyfiyyətinə ciddi təsir göstərir. Xüsusilə, aqrar sektorun dövlət tərəfindən idarə edilməsinin iqtisadi və

sosial-iqtisadi metodları və bu sahədə tətbiq edilən mexanizmlər kənd regionlarının davamlı inkişafına ciddi təsir göstərir. Dövlət tərəfindən aqrar sektora subsidiyaların və kreditlərin ayrılması, istehsal olunan məhsulun vaxtında bazarlara çatdırılması və ya tez xarab olan məhsulların saxlanması üçün xüsusi tədbirlərin görülməsi, aqrar sektorda risklərin sığortalanması və sair tədbirlər ölkənin kənd regionlarının inkişafı üçün vacib tədbirlərdir. Əhalinin sosial vəziyyətinin, xüsusilə, təhsil və səhiyyə xidmətlərinin yaxşılaşdırılması, kənd regionlarında həyat səviyyəsinin yüksəldilməsi dövlət tərəfindən aqrar sahənin idarə edilməsinin sosial-iqtisadi metodlarının əsas məqsədidir.

Təsadüfi deyildir ki, 16 aprel 2014-cü il tarixində ölkə prezidenti tərəfindən "Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətləndirilməsi ilə bağlı tədbirlər haqqında" fərman və 12 yanvar 2015-ci il tarixində "2015-ci ilin Azərbaycan Respublikasında "Kənd təsərrüfatı ili" elan edilməsi haqqında" sərəncam imzalanmışdır. Bu sənədlərdə aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və onun inkişafına nail olunması məqsəd kimi götürülmüşdür.

Beləliklə, aqrar sahədə həyata keçirilən liberal islahatlar dövlətin sosial-iqtisadi idarəetmə tədbirləri ilə bir-birini tamamlamalı və daim inkişaf etdirilməlidir. Aqrar sahədə idarəetmənin iqtisadi və sosial-iqtisadi metodların təkmilləşdirilməsi aqrar sahədə həyata keçirilən liberal islahatların uğurlu olması üçün çox vacibdir. Bu baxımdan, Azərbaycanda aqrar sahədə sosial-iqtisadi idarəetmənin mövcud vəziyyətinin tədqiq edilməsi və təkmilləşdirilməsi istiqamətlərinin müəyyən edilməsi elmi və praktiki əhəmiyyət daşıyır.

**Problemin öyrənilmə səviyyəsi.** Aqrar sahədə sosial – iqtisadi idarəetmənin inkişafı və təkmilləşdirilməsi problemləri haqqında bir sıra mühüm nəzəri və praktiki məsələlər dünyanın tanınmış iqtisadçıları tərəfindən , həmçinin Azərbaycan alimləri tərəfindən tədqiq edilib. Azərbaycanın iqtisadçı alimlərindən A.K.Ələsgərov, Z.Ə.Səmədzadə, Ə.X.Nuriyev, A.A.Nadirov, İ.H.Alıyev, İ.T.Əhmədov, B.X.Ataşov, A.Məmmədov, İ.H.İbrahimov, S.V.Salahov, R.Ə.Balayev, H.Allahverdiyev, V.H.Abbasov, Ə.Verdiyev və digərlərinin əsərlərində, xarici ölkə alimlərindən F.V.Taylor, H.Fayol, L.İ.Abalkin, N.İ.Kabuşkin, İ.Q.Uşaçev, Z.Dinler və başqalarının monoqrafiya və elmi məqalələrində bu problemin nəzəri və praktiki aspektləri tədqiq edilmişdir.

Yuxarıda şərh edilən elmi araşdırmaların nəticələrini yüksək qiymətləndirməklə yanaşı qeyd etmək lazımdır ki, bu tədqiqatlarda Azərbaycanın aqrar sektoru dövlət idarəetmə obyektinə daxil olan liberal

sistem kimi sosial-iqtisadi aspektdə tədqiq edilməyib. Tədqiqat işinin oxşar tədqiqatlardan əsas fərqi ondan ibarətdir ki, aqrar sahədə liberal islahatların dərinləşdirilməsi ilə sosial – iqtisadi idarəetmənin təkmilləşdirilməsi tədbirləri bir-birini tamamlayan iqtisadi siyasət kimi tədqiqata cəlb edilib.

**Tədqiqatın məqsədi** Azərbaycanda kənd regionlarının dayanıqlı inkişafı üçün aqrar sahədə sosial – iqtisadi idarəetmənin təkmilləşdirilməsi yollarının müəyyənləşdirilməsindən ibarətdir. Nəzərdə tutulmuş məqsədlərə nail olmaq üçün aşağıdakı **vəzifələr** qarşıya qoyulmuş və tədqiqat zamanı öz həllini tapmışdır:

- aqrar sahədə dövlət idarəetməsinin mahiyyəti və onun sosial-iqtisadi metodlarının müəyyənləşdirilməsi;
- aqrar sahənin sosial-iqtisadi mahiyyətinin tədqiq olunması və bu sahənin inkişafının nəzəri əsasları və prinsiplərinin qiymətləndirilməsi;
- aqrar sahənin idarəedilməsinin, inkişafının müasir vəziyyətinin dəyərləndirilməsi;
- aqrar sahədə qiymət mexanizminin tənzimlənməsi məsələlərinin tədqiqi;
- müasir iqtisadi şəraitdə aqrar sahəyə maliyyə - kredit yardımının əsas istiqamətlərinin təyini;
- aqrar sahə üzrə sığorta işinin beynəlxalq təcrübə nəzərə alınmaqla tənzimlənməsi.

**Tədqiqatın obyekti** Azərbaycanın aqrar sektoru və onun müxtəlif tərkib hissələridir götürülüb.

**Tədqiqatın predmeti** aqrar sahədə dövlət idarəetməsinin sosial-iqtisadi metodlarının öyrənilməsi və təkmilləşdirilməsidir.

**Tədqiqatın nəzəri – metodoloji əsasları.** Tədqiqatın nəzəri vəmetedoloji əsaslarını yerli və xarici ölkələrin iqtisadçı alimlərinin aqrar sahənin inkişafı və idarə edilməsi ilə bağlı əsərləri, bu sahədə iqtisadi qanunvericilik sənədləri, ölkə rəhbərliyinin fərman və sərəncamları, Milli Məclisin qəbul etdiyi qanunlar, Kənd Təsərrüfatı Nazirliyinin və Nazirlər Kabinetinin hüquqi – normativ aktları və s. sənədlər təşkil etmişdir.

Tədqiqat işinin reallaşdırılmasında statistik təhlil, məntiqi ümumiləşdirmə, sistemli təhlil kimi üsullardan istifadə olunmuşdur.

**Tədqiqatın məlumat mənbələri.** Araşdırmanın yerinə yetirilməsi zamanı Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin, Azərbaycan Respublikasının Maliyyə, İqtisadiyyat və Sənaye Nazirliyinin məlumatlarından geniş istifadə olunmuşdur.

Dissertasiya işində internet şəbəkəsindən, onun informasiya bazasından da geniş şəkildə istifadə olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

- aqrar sahə üzrə iqtisadi idarəetmənin sosial yönümlülüyünü təmin edən faktorlar əsaslandırılmışdır;
- aqrar sahədə sosial-iqtisadi idarəetmənin formalaşmasına və inkişafına təsir edən amillərin təhlili və qiymətləndirilməsi aparılmışdır;
- aqrar sahədə qiymətlərin tənzimlənməsi mexanizmləri təklif edilmişdir;
- müasir iqtisadi şəraitdə aqrar sahəyə maliyyə - kredit yardımının əsas istiqamətləri göstərilmişdir;
- aqrar sahədə sığorta işinin təkmilləşdirilməsi istiqamətləri müəyyənləşdirilmişdir;
- aqrar sahədə kənd təsərrüfatı kreditlərinin zəmanəti fondunun yaradılması zəruriliyi əsaslandırılmışdır

**Tədqiqatın təcrübi əhəmiyyəti.** Tədqiqatın təcrübi əhəmiyyəti ondan ibarətdir ki, tədqiqat zamanı əldə olunmuş nəticələr aqrar sahədə sosial – iqtisadi idarəetmənin inkişafı və təkmilləşdirilməsi istiqamətlərinin təmin edilməsi, bu sahədə irəli sürülmüş təklif və tövsiyələr müvafiq normativ – hüquqi sənədlərin, regionlar üzrə aqrar proqram, qanun layihəsi və yeni təlimatların hazırlanmasında istifadə oluna bilər.

Dissertasiya işinin nəticələri aqrar sahə üzrə sosial – iqtisadi idarəetmənin müxtəlif iqtisadi aspektlərini araşdıran doktorantlar, tədqiqatçılar, mütəxəssislər və s. tərəfindən istifadə oluna bilər.

Tərtib olunmuş dissertasiya aqrar sahədə sosial – iqtisadi idarəetmə üzrə metodoloji qanunauyğunluqlar, konseptual prinsiplər və iqtisadi meyllər çərçivəsində yekunlaşdırılmış təcrübi, eyni zamanda effektiv hesab olunan təklif və tövsiyələrə əsaslanan elmi əsər kimi ali məktəblərdə aqrar sahə üzrə kadrların hazırlanması prosesində istifadə oluna bilər.

**İşin aprobasiyası və nəticələrin tətbiqi.** Tədqiqatın əsas müddəaları və işdə irəli sürülən əməli təkliflər respublikada keçirilən “Qloballaşma Prosesində Qafqaz və Mərkəzi Asiya” II Beynəlxalq Konqresində, "Beynəlxalq İqtisadi Əlaqələrin İnkişafında Regionların Rolu və Əhəmiyyəti" Beynəlxalq Elmi Konfransında, Ümummilli Liderimiz Heydər Əliyevin Anadan Olmasının 87-ci İldönümünə Həsr Olunmuş Gənc Tədqiqatçıların Ümumrespublika Elmi Konfransında, “Dayanıqlı inkişaf və idarəetmə modelləri: nəzəriyyə və praktika” Beynəlxalq Konfransında, “Qloballaşma Prosesində Qafqaz və Mərkəzi Asya” III Beynəlxalq

Konfransında məruzə edilmişdir. Ümumilikdə tədqiqat işi üzrə 7 elmi məqalə çap olunmuşdur.

Tədqiqat işinin əsas müddəaları və nəticələri Qafqaz Universitetində tədris prosesində (Ç-QU-10200-300/1654, 09/12/2013), eyni zamanda Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Elm Mərkəzində istifadə üçün qəbul edilmişdir.

**Dissertasiya işinin həcmi və quruluşu.** Tədqiqat işi giriş, üç fəsil, doqquz paraqraf, nəticə və təkliflər, eləcə də istifadə olunmuş ədəbiyyat siyahısı da daxil olmaqla 153 kompüter səhifəsi həcmindədir. Tədqiqat işində 7 cədvəl, 5 qrafik, 1 şəkil, 1 sxem verilib.

**Dissertasiya işinin mündəricatı**

**Giriş**

**I Fəsil. Sosial-iqtisadi idarəetmənin formalaşması və inkişafının nəzəri əsasları**

1.1Qloballaşma şəraitində idarəetmə prosesinin mahiyyəti və iqtisadi məzmunu

1.2 İdarəetmədə sosial məzmunun formalaşma xüsusiyyətləri

1.3 Aqrar sahə sosial-iqtisadi idarəetmənin obyekti kimi

**II Fəsil. Azərbaycanda aqrar sahədə sosial-iqtisadi idarəetmənin mövcud vəziyyətinin təhlili və qiymətləndirilməsi**

2.1 Aqrar sahənin inkişafının müasir durumunun dəyərləndirilməsi

2.2 Aqrar sahədə sosial yönümlü idarəetmənin mövcud vəziyyətinin təhlili

2.3 Aqrar sahəyə dövlət dəstəyinin mövcud vəziyyətinin təhlili

**III Fəsil. Aqrar sahədə sosial-iqtisadi idarəetmənin təkmilləşdirilməsinin əsas istiqamətləri**

3.1 Aqrar sahədə qiymət mexanizminin təkmilləşdirilməsi məsələləri

3.2 Aqrar sahədə maliyyə-kredit mexanizmindən istifadənin təkmilləşdirilməsi istiqamətləri

3.3 Aqrar sahədə sığorta işinin təkmilləşdirilməsi perspektivləri

**Nəticə və təkliflər**

**İstifadə olunmuş ədəbiyyat**

# MÜDAFİƏYƏ TƏQDİM EDİLƏN ƏSAS ELMİ MÜDDƏALAR

**1. Aqrar sahə liberallaşmanın ən çox olduğu iqtisadi fəaliyyət sahəsidir. Lakin buna baxmayaraq, aqrar sahə dövlət idarəetməsinə daxil olan açıq sistemdir.**

İqtisadi və sosial idarəetmə bir biri ilə əlaqədə olan kompleks idarəetmə sistemidir. Bu baxımdan aqrar sahədə iqtisadi idarəetmənin sosial məqsədi torpaq mülkiyyətçilərinin və kənddə yaşayan digər sosial qrupların kənd sakinlərinin mənəvi və maddi tələbatını ödəməkdir. Bu, hər şeydən əvvəl mədəniyyətin, maarifin, səhiyyənin, məişət xidmətinin, yol inşaatının inkişafı, rabitə vasitələri və tətbiqinin artırılması ilə, ictimai asayişin pozulması hallarının ləğv edilməsi, şəhər və kənddə işçilərin həyat səviyyələrinin yaxşılaşdırılmasına yönəldilən bütün sosial tədbirlərin həyata keçirilməsi ilə bağlıdır.

Sosial inkişaf prosesi öz növbəsində cəmiyyətin iqtisadi inkişafına təsir edən əsas amildir. Ona görə hər bir dövlətin sosial sahədəki siyasətinə ölkənin iqtisadi siyasətinin əsasını təşkil edən mühüm və başlıca tərkib hissəsi kimi baxılmalıdır. Çünki sosial siyasət respublikada əhalinin normal həyat səviyyəsinin ardıcıl surətdə həyata keçirilməsinə yönəldilmiş iqtisadi, sosial və hüquqi tədbirlər sistemini birləşdirir. O, əhalinin bütün sosial-demoqrafik təbəqələrinin mənafeyinə toxunur.

Sosial bazar iqtisadiyyatı tərəfdarlarının fikrincə, dövlət iqtisadiyyatda azad bazar və rəqabət mühitinin təmin olunması ilə yanaşı, sosial məsələlərin həllini də diqqət mərkəzində saxlamalıdır. Onların fikrincə dövlət aktiv, tənzimləyici olmalı, iqtisadi sistemin hüquqi çərçivəsini müəyyənləşdirməli və tənzimləməli, sağlam rəqabət mühiti formalaşdırmalıdır. Ən önəmlisi isə əsas sosial məqsədləri həyata keçirmək üçün iqtisadiyyata müdaxilə etməli və müvafiq tədbirlər həyata keçirməlidir. Bu tədbirlər sırasına yoxsulluğun azaldılması və gəlirin ədalətli bölgüsünün təmin edilməsi, hər kəsə bərabər imkanların yaradılması, insanların sosial müdafiəsinin həyata keçirilməsi, işsizliyin aradan qaldırılması və tam məşğulluğun təmin olunması, iqtisadi inkişafın təmin olunmasını və s. aid etmək olar.

İqtisadiyyatın idarəolunması zamanı sosiallıq prinsipinin nəzərə alınması, bazarda ən az gəlirli təbəqənin həyat səviyyəsinin yaxşılaşdırılmasını və cəmiyyətin bütün üzvlərinin iqtisadi və sosial problemlərə qarşı müdafiə olunmasını tələb edir.

Aqrar sahədə dövlət idarəedilməsi müxtəlif metodlarla, o cümlədən iqtisadi və sosial-iqtisadi metodlarla həyata keçirilir. İdarəetmənin iqtisadi metodu gəlirləri, maliyyəni, kreditləri, rentabelliyi, əmək haqqını və sair məsələləri əhatə edən iqtisadi mexanizmlərə əsaslanır.

**2. Aqrar sahədə dövlət idarəetməsinin əsas məqsədi kənd regionlarının dayanıqlı inkişafıdır. Bu isə a) regionların sabit sosial-iqtisadi inkişafını; b) kənd təsərrüfatı məhsullarının istehsal həcminin artırılmasını; c) kənd təsərrüfatının səmərəliliyinin artırılmasını; d) kənd əhalisinin tam məşğulluğunun əldə edilməsini; e) onların həyat şəviyyəsinin yüksəldilməsini; f) torpaqdan səmərəli istifadəni və sair tədbirləri nəzərdə tutur.**

Sovet İttifaqının dagılmasından sonra müstəqilliyini əldə edən Azərbaycan, ictimai mülkiyyətə əsaslanan iqtisadi sistemdən özəl mülkiyyətə əsaslanan bazar iqtisadiyyatına döğru sürətli addimlar atmışdır. Artıq iqtisadiyyatın aqrar sektorunda islahatların birinci mərhələsi başa çatmış, müxtəlif mülkiyyət mənsublu təsərrüfatçılıq qurumları yaradılmış, azad sahibkarlıq və rəqabət mühiti formalaşmışdır. Aqrar islahatların birinci mərhələsində kənd təsərrüfatının inkişafı bütünlükdə bazar mexanizminin qanunauyğunluqlarına və prinsiplərinə tabe etdirilmiş, bu sahədə çoxsaylı normativ–hüquqi aktlar qəbul edilmişdir. Məhsulun satışı, gəlirlərin bölüşdürülməsi və digər texnoloji proseslərdə mülkiyyət mənsubiyyətindən asılı olmayaraq, kənd təsərrüfatı əmtəə istehsalçılarının təsərrüfat–iqtisadi müstəqilliyi təmin edilmişdir.

Bütün bunların nəticəsində ölkədə dinamik iqtisadi inkişaf baş vermiş, əhalinin gəlirləri ilbəil artmışdır. Ümumi daxili məhsul (ÜDM) 2003-ci ilə nisbətən 2014-cü ildə təxminən 7 dəfə artmışdır. Adambaşına düşən ÜDM isə 2003-cü illə müqayisədə 2014-cü ildə təxminən 7.2 dəfə artmışdır. Lakin, ÜDM artımında kənd təsərrüfatının xüsusi çəkisi digər sahələrə nisbətən geri qalmışdır. ÜDM-də kənd təsərrüfatının xüsusi çəkisi 2014-cü ildə 5.3% olmuşdur. Aparılan islahatlar kənd təsərrüfatında dinamik inkişafa səbəb olsa da, onun hal hazırda ÜDM-dəki payının az olması daha çox neft sənayesinin sürətli inkişafı ilə bağlıdır. Belə ki bu sahə 2014-cü ildə ÜDM-də 41.5 % yer tutmuşdur. Bütövlükdə, ölkə iqtisadiyyatının inkişafında müsbət dəyişiklər baş versə də, qeyri-neft sektorunun, xüsusilə, aqrar sahənin inkişafı daha önəmli sahə kimi öz əhəmiyyətini saxlamışdır. Son illərdə aparılan aqrar islahatlarla əlaqədar respublikamızın ərzaqla özünütəminat səviyyəsinin ciddi şəkildə artmasına baxmayaraq, bu, ölkəmizin aqrar ərzaq kompleksinin potensialından kifayət qədər səmərəli və tam istifadə olunması demək deyildir.

2014-cü ildə kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 5 225,8 milyon manat (2013-cü ildə 5 244,6 milyon manat) təşkil etmiş və keçən ilə nisbətən 0.3 %, azalmış, o cümlədən bitkiçilik məhsulları üzrə 6.8% azalmış, heyvandarlıq məhsulları üzrə 6.1 % artmışdır.

Sahibkarlığa göstərilən hərtərəfli dövlət yardımının (güzəştli kreditlər verilməsi, emal müəssisələri və məhsul saxlama anbarlarının tikilməsi, kənd təsərrüfatının texnika ilə təmin edilməsi, cins mal-qaranın lizinq yolu ilə fermerlərə verilməsi və s.) kənd təsərrüfatı məhsullarının istehsalının artırılmasına öz müsbət təsirini göstərmişdir.

2014-cü ildə 1001,4 min hektar (qarğıdalı daxil edilməklə) taxıl sahəsi biçilmiş və 2383,3 min ton məhsul götürülmüşdür. Hektarın orta hesabla məhsuldarlığı 24 sentner olmuşdur. 2013-ci ilin müvafiq dövrü ilə müqayisədə taxıl istehsalı 20 % və ya 572 min ton, məhsuldarlıq isə 3.5 sentner azalmışdır. 2014-cü ildə sahələrdən 819,3 min ton kartof, 1 187,7 min ton tərəvəz bitkiləri, 440,9 min ton ərzaq üçün bostan məhsulları toplanmışdır. 2014-cü ildə cəmi 2,9 min ton tütün yarpağı yığılmışdır. Bitkiçilik məhsullarının istahsalını aşağıda, cədvəl 1-də görə bilərik.

Cədvəl 1

2004-2014-cü illərdə bitkiçilik məhsullarının istehsalı

| İllər | Dənli və dənli paxlalılar | Pambıq | Tütün | Kartof | Tərəvəz | Ərzaqlıq bostan bitkiləri |
|---|---|---|---|---|---|---|
| 2004 | 2158.2 | 135.7 | 6.5 | 930.4 | 1076.2 | 355.3 |
| 2005 | 2126.7 | 196.6 | 7.1 | 1083.1 | 1127.3 | 363.8 |
| 2006 | 2078.9 | 130.1 | 4.8 | 999.3 | 1186.4 | 362.1 |
| 2007 | 2004.4 | 100.1 | 2.9 | 1037.3 | 1227.3 | 417.6 |
| 2008 | 2498.3 | 55.4 | 2.5 | 1077.1 | 1228.3 | 407.7 |
| 2009 | 2988.3 | 31.9 | 2.6 | 983.0 | 1178.6 | 410.8 |
| 2010 | 2000.5 | 38.2 | 3.2 | 953.7 | 1189.5 | 433.6 |
| 2011 | 2458.4 | 66.4 | 3.6 | 938.5 | 1214.8 | 478.0 |
| 2012 | 2802.2 | 57.0 | 4.3 | 968.5 | 1216.2 | 428.0 |
| 2013 | 2955.3 | 45.2 | 3.5 | 992.8 | 1236.3 | 429.8 |
| 2014 | 2 383,3 | 41,0 | 2,9 | 819,3 | 1 187,7 | 440,9 |

Mənbə: www.stat.gov.az materialları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Kənd təsərrüfatının əsas sahələrindən biri olan heyvandarlıqda mal-qaranın baş sayı və heyvandarlıq məhsullarının istehsalı dinamik olaraq artmışdır. Son illərdə sürünün cins tərkibinin yaxşılaşdırılması yönündə

görülmüş müəyyən işlər mal-qaranın baş sayının və heyvandarlıq məhsullarının artmasına öz müsbət təsirini göstərmişdir.

2014-cü ildə ölkə üzrə 2703.9 min baş iri buynuzlu mal-qara, o cümlədən 1302.3 min baş inək və camış, 8651.2 min baş qoyun və keçi mövcud olmuşdur. 2013-ci illə müqayisədə iribuynuzlu mal-qaranın sayı 22 min baş (0.8 %), o cümlədən, inək və camışların sayı 14.2 min baş (1.1 %), qoyun və keçilərin sayı isə 91.9 min baş (1.1 %) artmışdır. 2002-2014-cü ildə ölkədə əsas heyvandarlıq məhsullarının istehsalını aşağıdakı cədvəldə görə bilərik.

Cədvəl 2

2004-2014-cü illərdə əsas heyvandarlıq məhsullarının istehsalı (1000 t)

| İllər | Ət (kəsilmiş çəkidə) | Süd | Yumurta, mlyn.ədəd | Yun (fiziki çəkidə) |
|---|---|---|---|---|
| 2004 | 196.8 | 1213.7 | 829.4 | 12.3 |
| 2005 | 205.0 | 1251.9 | 874.6 | 13.1 |
| 2010 | 253.8 | 1536.2 | 1178.6 | 15.6 |
| 2011 | 263.7 | 1622.3 | 1011.0 | 16.2 |
| 2012 | 285.6 | 1719.6 | 1226.7 | 16.5 |
| 2013 | 297.9 | 1820.5 | 1401.5 | 16.8 |
| 2014 | 291,2 | 1 855.8 | 1562.7 | 16.7 |

Mənbə: www.stat.gov.az saytından əldə edilmiş məlumatlar əsasında müəllif tərəfindən tərtib edilmişdir.

2014-cü il ərzində kəsilmiş çəkidə 291,2 min ton ət, 1855,8 min ton süd, 16,7 min ton yun və 1562,7 milyon ədəd yumurta istehsal edilmişdir. 2013-cü illə müqayisədə ət istehsalı 8,3 min ton və ya 1,7 faiz, süd istehsalı 59,1 min ton və ya 3,3 faiz, yun istehsalı 263 ton və ya 1,6 faiz, yumurta istehsalı isə 161,3 milyon ədəd və ya 11,5 faiz artmışdır.

Respublikamızda kənd təsərrüfatı sahəsində aparılan islahatlar bu sahənin inkişafına əlverişlı imkanlar yaratmışdır. Daxildə kənd təsərrüfatı məhsullarının istehsalının artması ilk öncə dövlətin bu istiqamətdə yeritdiyi uğurlu siyasəti təsdiqləyir. Yerli fermer təsərrüfatlarının mövcud təbii, maddi, maliyyə, texnoloji və insan potensialından səmərəli istifadə edilməsi üçün işlək mexanizmlər realizə olunur. Bu baxımdan diqqəti cəlb edən tədbirlərdən biri, yerli fermer təsərrüfatlarına və bütövlükdə aqrar sektorda fəaliyyət göstərən kiçik və orta sahibkarlığa dövlət tərəfindən dəstək və yardım proqramları ilə bağlıdır. Aqrar sahəyə dövlət qurumları

və kommersiya təşkilatları tərəfindən müxtəlif formalarda yardımlar və kreditlər verilir.

Kommersiya bankları və bank olmayan kredit təşkilatları aqrar sahənin kredit riski yükdək olduğu üçün kredit ayırmaqda maraqlı deyil. Əksər hallarda likvidliyi yüksək olan girovlar tələb olunur ki, bu da aqrar sahədə fəaliyyət göstərən fermerlərin imkanları daxilində olmur.

Aqrar sahənin inkişafına təkan verən əsas maliyyə dəstəyi Sahibkarlığa Kömək Milli Fondu, Kənd Təsərrüfatı Nazirliyi və onun qurumları tərəfindən həyata keçirilir. Ölkədə sahibkarlara yardım məqsədi ilə xüsusi yaradılmış Sahibkarlığa Kömək Milli Fondu tərəfindən artıq on ildən çox müddət ərzində bölgələrdə fəaliyyət göstərən fermer təsərrüfatlarına kreditlər və maliyyə yardımı paylanmışdır. 2002-2013-cü illər ərzində Sahibkarlığa Kömək Milli Fondu tərəfindən kənd təsərrüfatı məhsullarının emalına 154471.3 min manat, kənd təsərrüfatı məhsullarının istehsalına isə 499257.4 min manat həcmində yardım göstərilmişdir.

"Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında" Prezidentin 23 yanvar 2007-ci il tarixili sərəncamına uyğun olaraq kənd təsərrüfatı məhsulları istehsalçılarının istifadə etdikləri yanacağın, motor yağının və mineral gübrələrin dəyərinin orta hesabla 50 faizinin dövlət tərəfindən ödənilməsi kənd təsərrüfatı məhsulları istehsalına güclü təkan vermişdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15 fevral 2007-ci il tarixli 32 nömrəli və 16 noyabr 2007-ci il tarixli 181 nömrəli qərarları ilə təsdiq olunmuş "Qaydalar"a uyğun olaraq istehsalçılara hər hektar əkin sahəsinin və çoxillik əkmələrin (növündən asılı olmayaraq) becərilməsində sərf olunan yanacaq və motor yağlarına görə 40 manat, habelə hər hektar buğda və çəltik səpininə görə dövlət büdcəsinin vəsaiti hesabına əlavə olaraq 40 manat məbləğində yardımın verilməsi 2007-ci ildən başlayaraq indiyədək davam etdirilir. 2008-ci ildən isə dövlət buğda əkən fermerlərə daha 40 manat, yəni ümumilikdə 80 manat subsidiya verməyə başlamışdır. 2013-cü ilin avqust ayına qədər fermerlərə birbaşa subsidiya şəklində 644.89 mln manat vəsait, o cümlədən, gübrənin qiyməti üçün 87.29 mln manat, yanacaq və motor yağlarına görə 378.25 mln manat, toxum alınmasına 33.05 mln manat, buğda alınmasına 146.3 mln manat subsidiya verilmişdir.

### 3. Aqrar sahədə dövlət satınalmaları və ya satışdan zərərin ödənilməsi mexanizminin tətbiqi sosial-iqtisadi idarəetmə metodları kimi aqrar sahədə qiymətlərin tənzimlənməsini təmin edə bilər

Qiymət sistemi sosial-iqtisadi inkişafa müsbət və mənfi təsir göstərə bilər. Bu qiymət sisteminin düzgün təşkilindən və onun səviyyəsinin elmi

cəhətdən əsaslandırılmasından asılıdır. Qiymət elmi əsaslara söykənməli və və məhsul dəyərinin pulla ifadəsi kimi sərf olunan ictimai-zəruri əməyin kütləsinə uyğun olmalıdır. Qiymət məhz ictimai-zəruri əmək əsasında formalaşmalıdır. Məhsullara ictimai-zəruri əməyin kütləsinə uyğun olaraq qiymət qoyulmalıdır və o subyektiv amillərdən təsirlənməməlidir. Bu qiymət qoymanın nəzəri əsasını təşkil edən dəyər qanununun tələbidir. Bu qanunun obyektiv tələbinə əməl olunmaması neqativ hallara gətirib çıxara bilər. Uzun müddət iqtisadiyyatımızda bu hal mövcud olmuş və qiymət sistemi öz obyektiv məcrasından çıxarılmışdır. Qiymət sistemi subyektiv amillər əsasında qurulmuş və əksər hallarda əmtəələrə qoyulan qiymət onun istehsalı üçün sərf edilən ictimai-zəruri əməyin kütləsinə uyğun gəlməmişdir. Nəticədə iqtisadi inkişafımıza böyük ziyan dəymiş və qiymət ölkədə iqtisadi münasibətlərin düzgün qurulmasında böyük bir əngələ çevrilmişdir. Halbuki qiymət stimullaşdırıcı xarakter daşımalı və iqtisadi münasibətlərin düzgün qurulmasında ən zəruri iqtisadi vasitələrdən biri olmalıdır.

Aqrar sahənin sosial-iqtisadi idarəedilməsi zamanı qiymət mexanizmindən istifadənın düzgün qurulması xüsusi əhəmiyyət kəsb edir. Burada tətbiq olunan qiymət siyasəti kənd təsərrüfatı istehsalçısında istehsalın inkişafına və nəticələrinə güclü maddi maraq yaratmalıdır. Aqrar sahədə qiymətin bu funksiyası həmişə gözlənilməli və ona əməl olunmalıdır. Xüsusi ilə indiki bazar iqtisadiyyatı şəraitində bu məsələ xüsusi diqqət mərkəzində saxlanılmalıdır. İndiki qiymət sistemi bazar iqtisadiyyatının əsas atributlarından biri olan çoxukladlı iqtisadiyyata uyğun təkmilləşdirilməli və inkişaf etməlidir.

Özəlləşmə istiqamətində mülkiyyət münasibətlərinin təkmilləşdirilməsi və azad sahibkarlığın inkişafı ilə əlaqədar tələb-təklif prisipi əsasında qiymətlərin formalaşması üçün geniş şərait yaranır və bu istiqamətdə yeni qiymət formaları qərarlaşır və fəaliyyət göstərir. Müqavilə, müəsissələr arası hesablaşma, bazar qiymətləri məhz bu qəbildəndir. Bu qiymətlər bazar münasibətlərini ifadə edən qiymətlər olmaqla getdikcə daha geniş miqyas almalı və əmtəə mübadiləsinin əsas formalarından biri olmalıdır. Çünki hakim mülkiyyət olan dövlət mülkiyyətinin deformasiyası və bu əsasda yeni mülkiyyət formalarının yaranması bunu zəruri edir və bazar münasibətlərinin formalaşması üçün şərait yaranır. Bu zaman əsas məsələ fermerlərin gəlirlərini müəyyən səviyyədə saxlamağa imkan verən qiymət siyasətinin tətbiq edilməsidir ki, onun da asağıdakı formaları mövcuddur.

Qiymət səviyyəsinin qorunması mexanizmi: Bu mexanizm vasitəsilə kənd təsərrüfatı məhsullarına dövlət tərəfindən minimum qiymətlər təyin edilir və təyin edilmiş qiymət səviyyəsi qorunub saxlanılır. Mexanizmi daha aydın görmək üçün asağıdakı qrafikə nəzər yetirək.

Qrafik 1

Qiymət səviyyəsinin qorunması mexanizmi




Qrafikdə Q – məhsulun qiyməti, M – məhsulun istehsal miqdarı və ya təklifi, A –təklif əyrisi, T – tələb əyrisidir. Fərz edək ki, dövlət buğdanın hər tonu üçün $Q_2$ səviyyəsində minimum qiymət təyin etmişdir və bu qiymətlə bazarda $M_2$ miqdarında buğda reallasdırmaq mümkün olur. Əgər qiymət $Q_1$ səviyyəsində olarsa, o zaman tələb və təklif əyriləri təklifin $M_1$ səviyyəsində olduğu miqdarda kəsişərlər və $Q_1$ tarazlıq qiyməti olar. Lakin $Q_1$ qiymət səviyyəsində təklif edilən məhsulun hamısı satılsa da, bu qiymət səviyyəsi dövlətin təyin etdiyi minimum qiymət səviyyəsindən asağıdır və dövlətin təyin etdiyi qiymət səviyyəsində istehlakçılar yalnız $M_2$ miqdarında buğda alacaqlar və bu da istehsal olunmus məhsulların hamısının satılmaması ilə nəticələnir və təklif artıqlığı yaranır. Fermerlər isə məcbur olurlar ki, əllərində qalmıs artıq məhsulu ucuz qiymətə satsınlar. Bu zaman dövlət qiymətlərin təyin olunan $Q_2$ səviyyəsində saxlanılması və istehsal olunan məhsulların hamısının reallasması üçün yaranan təklif artıqlığını, yəni məhsulun $M_2$-$M_1$ qədərini təyin etdiyi qiymətdən dövlət ehtiyat fondu üçün satın alır və nəticədə tələb və təklif təyin olunmus Q2 qiymət səviyyəsində tarazlıq əldə edilmiş olur. Azərbaycanda bu mexanizmin tətbiq olunmasını azgəlirli əhaliyə mənfi təsir edəcəyi üçün məqsədəuyğun hesab etmirik.

Hədəf qiyməti ilə satış qiyməti aradakı fərqin (və yaxud satışdan zərərin) ödənilməsi: Aşağıdakı qrafikdə göründüyü kimi dövlət kənd təsərrüfatı məhsulları üçün konkret hədəf qiyməti və ya qarant olunmus

qiymət ($Q_2$) müəyyən edir və istehsalçılar da bu qiymətə uyğun məhsul təklif ($M_1$) edirlər. Lakin istehlakçılar bu qiymətə təklif edilən məhsulu satın almırlar. Onlar yalnız Q1 kimi asagı qiymət səviyyəsində təklif olunan məhsulun hamısını satın alırlar. Bu isə istehsalçıların gəlirlərinin azalmasına səbəb olur. Bu halda dövlət istehsalçılara təklif edir ki, məhsullarını bazarda istehlakçılarla razılaşdırılan qiymətə reallaşdırsınlar və əgər hədəflənən qimətdən asağı satarlarsa, aradakı fərq dövlət tərəfindən subsidiya səklində onlara ödənəcəkdir. Burada dövlətin ödədiyi miqdar $Q_1Q_2LK$ düzbucaqlısının sahəsi qədərdir. Bu mexanizmin tətbiqi zamanı istehlakçılar kənd təsərrüfatı məhsullarını yüksək qiymətə almaq məcburiyyətində qalmırlar.

Qrafik 2

Hədəf qiyməti və aradakı fərqin ödənilməsi mexanizmi




Son dövrlərdə qiymətlə bağlı tətbiq edilən bu mexanizmlərin bir qədər azaldığı və yeni bir sistem olan "Birbasa gəlir ödəməsi" sistemindən daha geniş istifadə edildiyi müşahidə olunur. Bu sistemdə qiymət dəstəkləməsi və təklifin məhdudlaşdırılması kimi tədbirlər azaldılır və konkret təyin olunmus təsərrüfat subyektlərinə illik birdəfəlik maliyyə yardımı göstərilir. Yardımlar məhsula görə deyil, istehsalçıya verilir və qiymətlər bazarda sərbəst şəkildə müəyyənləşir. İstehsalçılar əvvəlcədən onlara ayrılacaq yardımın məbləğini bilir və işlərini buna uyğun formada qururlar.

**4. Aqrar sahədə sosial-iqtisadi idarəetmə metodlarından biri kimi istifadə edilən maliyyə-kredit mexanizmi səmərəli qurulmayıb. səmərəli maliyyə-kredit mexanizmi hədəf qrupları üzrə yanaşmanı və regional yanaşmanı nəzərə alaraq qurulmalıdır**.

Aqrar sahənin inkışaf etdirilməsi üçün bu gün ən çox tələb olunan resurslardan biri maliyyə resurslaridir. Müasir dövrdə dövlətin həyata keçirdiyi maliyyə-kredit siyasəti iqtisadiyyatın bütün sahələrində olduğu

kimi aqrar sahədə də bazar münasibətlərinin inkişafına, təkrar istehsalın təşkilinə və məhsulların rəqabət qabiliyyətinin yüksəldilməsinə təsir göstərir. Aqrar sahədə fəaliyyət göstərən təsərrüfat subyektlərinin inkişaf etdirilməsində kreditin böyük əhəmiyyəti və rolu vardır. Lakin son illərdə ölkə iqtisadiyyatının real sektoruna yönəldilmiş kredit qoyuluşlarının cəmi 9,37%-i (847 mln. manat) kənd təsərrüfatına yönəldilmişdir. Kənd təsərrüfatının maliyyə imkanlarını artırmaq və mövcüd potensialın tam şəkildə hərəkətə gətirilməsi üçün bu kifayət edən məbləğ deyildir. Maliyyə resurlarının çatışmazlığı hətta mövcüd resursların səmərəli istifədəsini məhdudlaşdırmaqla kənd təsərrüfatının bir iqtisadi fəliyyət sahəsi kimi cəlbediciliyini aşağı salır və əhalinin kənd yerlərindən şəhər yerlərinə köçməsinə səbəb olur. Beləliklə, kənd təsərrüfatının krteditləşməsi prosesinin aqrar səhənin xüsusiyyətlərinə uyğunlaşdırılması və maliyyə resurslarina olan tələbin lazım olan həcmdə ödənməsi üçün yeni mexanizmlərin hazırlanması bir tələb kimi qarşıya çıxır.

Ölkənin kənd təsərrüfatının güzəştli şərtlərlə kreditləşdirilməsində ixtisaslaşmış iki dövlət qurumu- Sahibkarlığa Kömək Milli Fondu və Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyi aktiv iştirak edir. Bu qurumların vəsaitləri müvəkkil kredit təşkilatları vasitəsilə sahibkarlara təqdim edilir. Sahibkarlığa Kömək Milli Fondu hal-hazırda kənd təsərrüfatına güzəştli kredit resurslarının təqdim olunmasında aparıcı mövqeyə malikdir. 2014-cü ildə bu qurum kənd təsərrüfatına 186,4 mln. manat kredit qoyuluşu etmişdir ki, bu da həmin dövr üzrə təşkilatin ümumi kredit qoyuluşlarının 63,2%-ni təşkil edib.

Bu qurumlarla yanaşı ölkənin bir sıra özəl bankları və bank olmayan kredit təşkilatları da kreditlər ayrılmasında fəal iştirak edir. Ölkə iqtisadiyyatına kredit qoyuluşlarının 64,2% özəl banklar və bank olmayan kredit təşkilatlarının payına düşür. Bütün bunlara baxmayaraq, kənd təsərrüfatına kredit qoyuluşları digər sahələrə nisbətən aşagi səviyyədədir. Belə ki, 2014-cü ilin sonuna olan göstəricilərə əsasən, real sektora (kənd təsərrüfatını çıxmaqla) yönəlmiş kreditlərin iqtisadi məşğul əhalinin adam başına düşən payı 2815 manat təşkil etdiyi halda, kənd təsərrüfatında bu göstərici 500 manat təşkil etmişdir. Həmçinin əksər regionlarda kredit qoyuluşlarının orta faiz dərəcəsi 20%-dən yüksək olmuşdur. Regionlarda əsas fəaliyyət sahəsi kənd təsərrüfatı olduğundan məhsulun istehsalı və satışı mövsümü xarakterlidir. Ona görə də qeyd olunan faiz dərəcəsini kifayət qədər yüksək hesab etmək olar. Kredit faizlərinin yüksək olması regionlarda ucuz kredit resurslarina çıxışın zəif olması ilə, həmçinin kredit

təşkilatlarının əldə etdikləri resursların dəyərinin və itki riskinin yüksək olması ilə bağlıdır.

Beləliklə, özəl bankların kreditləri, hətta güzəşt müddəti təqdim olunduğu halda, kənd təsərrüfatı üçün səmərəli olmur. Nəticədə kənd təsərrüfatı ilə məşğul olan insanlar təsərrüfatlarını inkişaf etdirmək üçün lazımi aqrotexniki tədbirləri yerinə yetirə bilmədikləri və ya vaxtında edə bilmədikləri üçün təsərrüfatın rentabilliyi aşağı düşür.

Aqrar sahəsi inkişaf etmiş dövlətlərin bu sahədəki təcrübələrindən ölkəmiz üçün xarakterik olanlarının öyrənilməsi və eyni zamanda onun səmərəli tətbiq edilməsi ölkəmiz üçün zəruridir. Ayrı-ayrı ölkələrdə kənd təsərrüfatının inkişafına baxdıqda ilk növbədə kənd təsərrüfatına birbaşa yardımlar və güzəştli kreditlərin verilməsi nəzərə çarpır. Lakin hər bir ölkədə kənd təsərrüfatının imkanları və inkişaf səviyyəsinə görə müxtəlif mexanizmlərdən istifadə olunmuşdur. Bir sıra ölkələrdə xüsusi banklar, bəzilərində isə müxtəlif ixtisaslaşmış qurumlar yaradılaraq kənd təsərrüfatının maliyyələşdirilməsi həyata keçirilməkdədir.

Avropa ölkələrində kənd təsərrüfatinin kreditləşməsində xüsusi ixtisaslaşmış banklarla yanaşı kooperativ banklar da aktiv iştirak etməkdədir.Almanyada kənd təsərrüfatına güzəştli kreditlər təqdim etmək üçün xüsusi ixtisaslaşmış kooperativ banklar yaradılmış və bu banklara vergi güzəştləri tətbiq edilmişdir. Bu banklarin verdiyi kreditlərin faiz dərəcələri 6,8-7,3% arasında dəyişir. Fermerlər adətən bu kimi banklardan orta və uzun müddətli kreditlər üçün muracıət edir. Uzunmüddətli kreditləri isə əsasən Dövlət Kənd Təsərrüfatı Banki təqdim edir.

Fransada isə ilk Kənd Təsərrüfatı bankı Credit Agricole olmuş və sonrakı dövrlərdə kooperativ banklar inkişaf etmişdir. Fransada güzəştli kreditlər əsasən yeni başlamış və yeni texnologiyalar tətbiq edən fermerlərə ayrılır. Həmçinin güzəştlərin həcmi iqtisadi vəziyyətdən asılı olaraq dəyişir. Ümumiyyətlə, verilən güzəştli kreditlərin 70%-dən çoxu təsərrüfatın müasirləşdirilməsinə ayrılır.

Çexiyada kreditlər üzrə faizlərin aşağı salınması üçün xüsusi fond yaradılmışdır. Bu fond kommersiya banklarına konkret layihələr üzrə verilən kreditlərin əsas hissəsinin qaytarılmasına zəmanət verir.

Kənd təsərrüfatının kreditləşməsi sahəsində ABŞ təcrübəsi daha əhatəlidir. ABŞ-da fermerlərin kreditləşməsi sisteminin (FKS) əsasında federal torpaq banklar sistemi (FLBs) durur. Fermerlərin kreditləşməsi sistemi kənd əhalisinə, aqrobiznes müəssisələrinə və fermerlərə kreditlər təqdim edir və bazarda uzunmüddətli kredit portfelinin 17.7%-nə sahibdir. FKS-in tənzimlənməsini isə Fermer Kreditləri üzrə Adminstrasiya həyata

keçirir. ABŞ-da fermerlərə təqdim edilə güzəştlı kreditlərin faiz dərəcəsi orta müddətli dövrə qədər 6-6.5%, uzunmüddətli dövrdə isə fermerin təqdim etdiyi hesabat əsasında formalaşır. Kreditlərin müddəti isə 40 ilə qədər olur.

Bu sahədə mövcüd təcrübələri araşdırarkən aydın olur ki, bu ölkələrdə kənd təsərrüfatı kreditləşməsində əsas üstünlük kənd yerlərində əhaliyə güzəştli kreditlərin ayrılmasına, yeni fəaliyyətə başlamaq üçün ilkin kapitalın təmin olunmasına, mövsüm başlayarkən dövriyyə vəsaitlərinə olan ehtiyacı ödəmək və texniki təchizatın yaxşılaşdırılmasına verilir. Bununla yanaşı, dövlət qiymət tənzimlənməsi və zəmanətlərin təqdim olunması vasitəsilə kommersiya banklarının bu sahəyə kredit ayırmasını təşviq edir.

Rusiyada 2000-ci ildən səhmlərinin 100 faizi dövlətə məxsus olan "Rusiya Kənd təsərrufatı bankı" fəaliyyət göstərir və kənd təsərrüfatına kreditlərin verilməsində Rusiya bankları şəbəkəsində 2-ci yerdə qərarlaşır. Bu bankların təcrubəsindən istifadə etmək və onun əhəmiyyətli cəhətlərini tətbiq etmək məqsədəuyğundur.

Təbii iqlim və meteoroloji şərait təsərrufat fəaliyyətinin nəticələrinə təsir göstərməklə aqrar sahədə istehsalın riskli xarakter daşımasına səbəb olur. Aqrar sahə böyük kapital və enerji tutumlu sahədir və buna görə də investorların və sahibkarların diqqətini bir o qədər də özunə cəlb etmir. Bu səbəbdən kənd təsərrüfatında gedən sosial-iqtisadi proseslərin dövlət tərəfindən tənzimlənməsi və aqrar sahəyə maliyyə-kredit yardımının göstərilməsi zəruriliyi ortaya çıxır.

Beləliklə, indiki mərhələdə kənd təsərrüfatının kreditləşməsini sahənin xarakterinə və iqtisadiyyatdaki perspektiv mövqeyinə uygun olaraq təşkil etmək lazımdır. Burada həm hədəf qrupları üzrə yanaşma, həm də regional yanaşma həyata keçirilməklə kredit mexanizmini qurmaq lazımdır.

Hədəf qrupları üzrə yanaşma deyərkən aşagidakı qruplar nəzərdə tutulur:

- Fərdi fermer təsərrüfatlarının kreditləşməsi;
- Kiçik həcmli kənd təsərrüfatı istehsal və emal müəssisələrinin kreditləşməsi;
- İri kənd təsərrüfatı məhsullarının emal müəssisələrinin kreditləşməsi.

Regional yanaşmada isə əsas cəhət kimi kənd təsərrüfatının regionlardan asılı olaraq rentabelliyi nəzərdə tutulmalıdır. Çünki, ölkənin dağlıq regionlarında təsərrüfat xərcləri yüksək, məhsuldarlıq isə aşagı olur.

Digər tərəfdən, dağlıq regionlarda bazara çıxış imkanları zəif oldugu üçün gəlirlilik səviyyəsi də aşagı düşür.

Hal-hazırda ölkədəmizdə aqrar sahənin güzəştli kreditləşməsi iki mərhələdə baş verir. Birinci mərhələ müvəkkil banka müraciət və müvəkkil bankın kredit təsdiqinə dair razılıgını, ikinci mərhələ isə müvafiq fondun razılığını tələb edir. Bu hal bir tərəfdən vaxtın uzanmasına, digər tərəfdən isə bürokratik əngəllərin yaranmasına gətirib çıxara bilər. Belə bir sistem fermerin kredit götürməsi üçün bir aya qədər vaxt sərf etməsinə gətirib çıxarır. Digər tərəfdən, müvəkkil bankların daha likvid girov tələb etməsi isə kənd əhalisinin bu kreditlərdən istifadə imkanlarını minimuma endirir.

**5. Aqrar sahədə idarəetmənin sosial-iqtisadi metodunun sığorta mexanizmi fermer – sığorta təşkilatı - dövlət qurumu üçbucağını əhatə etmədiyindən səmərəli deyil.**

Kənd təsərrüfatına əlverişli coğrafi xüsusiyyətləri, təbii ehtiyatları və fərqli iqlim qurşaqlarına malik olması Azərbaycanda kənd təsərrüfatının və kənd təsərrüfatına əsaslanan sənaye sahələrinin inkişafı üçün əlverişli zəmin yaradır. İnsanların qida ehtiyaclarını qarşılamaqla yanaşı, milli gəlir, məşğulluq, xarici ticarət və aqrar-sənaye sahəsinin inkişafına göstərdiyi töhfələrə görə kənd təsərrüfatı milli iqtisadiyyatda mühüm əhəmiyyətə malikdir. Bu baxımdan kənd təsərrüfatında fəaliyyət göstərən subyektlərin istehsal prosesində və məhsul yığımından sonra qarşılaşa biləcəkləri müxtəlif risklərə qarşı qorunmaları mühüm əhəmiyyət kəsb edir. İstehsal subyektlərinin müxtəlif risklərə qarşı qorunması sığorta mexanizmi vasitəsilə həyata keçirilir.

Aqrar sahə iqtisadiyyatın sahələri arasında təbii, iqtisadi, sosial, siyasi və texnoloji risklərdən ən çox təsirlənən sahədir. Odur ki, inkişaf etmiş ölkələr kənd təsərrüfatı istehsalını təhdid edən təbii risklərin meydana gətirdiyi keyfiyyət itkiləri ilə yanaşı iqtisadi risklərin meydana gətirdiyi gəlir itkilərini də fermerin üzərindən götürüb, sığorta sistemlərinə transfer edirlər. Dünya ölkələrində kənd təsərrüfatı məhsullarının müxtəlif növ təbii fəlakətlərdən sığortalanması və sığorta haqlarının ödənilməsində fermerlərə dövlət dəstəyinin göstərilməsi ilə bağlı zəngin təcrübə var.

Kənd təsərrüfatı sektorunun inkişaf etdiyi ölkələrdə kreditləşmə və sığortalama fəaliyyətləri inteqrasiya olunmuş halda aparılır. Bu həm istehsalçılara, həm də kredit təşkilatlarına qarşılıqlı iqtisadi üstünlüklər təmin edərək, məhsulun sığortalanması mexanizmini inkişaf etdirir və istehsalın sabit şəkildə davam etdirilməsini həyata keçirir.

Dünyada tətbiq olunan kənd təsərrüfatı sığortalarının növləri və əhatə dairəsi ölkələrin iqtisadi inkişaf səviyyələrinə, ölkə iqtisadiyyatında aqrar

sahənin yeri və əhəmiyyətinə bağlı olaraq müxtəlif formalarda olur. Təcrübədə bəzi ölkələrin tətbiq etdikləri modellər ön plana çıxmış və digər ölkələr tərəfindən də mənimsənilmişdir. Məsələn İspaniyanın tətbiq etdiyi model Amerika Birləşmiş Ştatları da daxil olmaqla bir çox ölkənin kənd təsərrüfatı sığortası üçün model olmuşdur. Xarici ölkələrdə tətbiq olunan əsas kənd təsərrüfatı sığortası proqramlarını aşağıdakı kimi qruplaşdırmaq mümkündür:

***1. Risk Sığortası Proqramı***

a. Tək riskə qarşı sığorta proqramı: Bu sigortalarda yalnız bir riskə qarşı təminat verilir

b. Birdən çox riskə qarşı sığorta: Bu sığorta formasında bir neçə risk bir arada sığortalanır və əksər ölkələrdə bu system tətbiq olunur

***2. Keyfiyyət Sığortası Proqramı***: Bu sığorta forması məhsul üçün müəyyən bir keyfiyyət səviyyəsini təmin edir və regional ortalama keyfiyyət məlumatlarına əsaslanaraq tətbiq olunur. Burada əsas risk faktoru kimi quraqlıq nəzərə alınır.

***3. Gəlir Siğortası Proqramı:*** Bu sığorta forması istehsal xərclərini də nəzərə almaqla keyfiyyət və qiymət risklərini sığortalayır.

ABŞ-da kənd təsərrüfatı istehsalçıları tərəfindən ödənilən sığorta haqqının məbləğinin 60%-i dövlət tərəfindən qarşılanır. ABŞ-da məhsulların sığortalanması sistemi, dövlətlə özəl sığorta şirkətlərinin əməkdaşlığına əsaslanır. Dövlət, sığorta təminatı səviyyəsini müəyyənləşdirir, sığorta şirkətləri sığorta xidmətlərinin göstərilməsini təmin edir. Dövlətin dəstəyi ilə həyata keçirilən və birdən çox riski sığortalayan MPCI (Multiple Peril Crop Insurance) sığortası ABŞ-da tətbiq olunan ən məşhur və ənənəvi sığorta sistemidir. Bu sistemdə istehsalçıya dəyən zərər istehsalçı və sığorta şirkətinin birgə iştirakı ilə təyin olunur, istehsal səviyyəsinin müəyyən edilmiş miqdardan aşağı olduğu hallarda istehsalçıya dəyən zərər sığorta şirkəti tərəfindən ödənilir. Ödənişlər əldə olunan məhsul və əvvəlcədən təyin olunmuş qiymət əsasında hesablanaraq, qarant edilən məhsul miqdarı ilə aradakı fərqin ödənilməsinə əsaslanır.

Kənd təsərrüfatı məhsullarının sığortalanması ilə bağlı İspaniya təcrübəsi də maraq doğurur. Burada üçtərəfli qaydada, dövlət, fermer birlikləri və sığorta şirkətləri tərəfindən "sığorta fondu" sistemi formalaşdırılır. Fermerlərin sığorta şirkətlərinə ödədikləri sığorta ödənişləri fondda toplanır, zərərlər də fonddan birbaşa fermerə ödənilir. Bu sistemdə dövlət fermerlərə təbii fəlakətlərlə bağlı yardım göstərmir, lakin məhsullarını sığortalatdıran fermerlərin ödədikləri sığorta haqqının 50%-ni yardım formasında qarşılayır və bu məbləği birbaşa sığorta fonduna

göndərir. Sığorta haqlarının təyin olunması və yığılması, zərərlərin təyin olunması kimi fəaliyyətlər fondun struktur bölmələri tərəfindən həyata keçirilir. Sığorta şirkətləri sığorta sənədlərinin hazırlanması, marketinq və satış fəaliyyətlərini yerinə yetirir.

Azərbaycanda aqrar sektorda sığorta sistemi nəzərdən keçirdiyimiz ölkələrlə müqayisədə təkmil deyil. Bu sahədə əsas problemlər fermerlərin gəlir səviyyəsinin aşağı olması, kənd təsərrüfatı sığortaları üçün uzun illər dövlət siyasətinin formalaşdırılmaması, kənd təsərrüfatı və sığorta sektorlarındakı məlumat və maraq çatışmazlığı və sair ilə bağlıdır. Bütün bunlar nəzərə alınaraq, ölkəmizdə kənd təsərrüfatı məhsullarının sığortalanmasını stimullaşdırmaq üçün aşağıdakı təklifləri vermək mümkündür:

- İstehsalçıların sığorta fəaliyyəti ilə bağlı kütləvi maarifləndirilməsi və təbliğat işinin təşkil edilməsi;
- Peşəkar aqrar sahə mütəxəssislərinin hazırlanması məqsədilə dövlət qurumları və ali təhsil müəssisələri arasında qarşılıqlı əməkdaşlığın təmin olunması;
- Sığorta təşkilatlarının aqrar sahənin sığortalanması ilə bağlı fəaliyyətləri nəticəsində yaranmış bəzi xərclərə (rabitə, nəqliyyat və s.) güzəştlərin edilməsi;
- Sığortanı stimullaşdırmaq üçün məhsullarını sığorta etdirən fermerlərin güzəştli kreditlərlə (faiz dərəcəsi aşağı olan, uzunmüddəti, qaytarılma şərtləri fermerə uyğun olan və s.) təmin edilməsi;
- Sığorta hadisəsi baş verdiyi zaman sığorta təşkilatlarının ehtiyac duyduğu kənd təsərrüfatı mütəxəssislərinin (baytar, aqronom, aqrotexnik və s.) təmin edilməsində Kənd Təsərrüfatı Nazirliyinin mövcud imkanlarından istifadə edilməsinə şərait yaradılması;
- 4 mart 2004-cü il tarixində Nazirlər Kabineti tərəfindən qəbul edilmiş "Sığortalanmasına maliyyə yardımı göstərilən kənd təsərrüfatı əmlakının və sığorta hadisələrinin növlərinin və sığorta haqqının büdcə vəsaiti hesabına ödənilən hissəsinin müəyyən edilməsi" haqqında Qərara əsasən, sığortalanmasına dövlətin maliyyə yardımı göstərdiyi kənd təsərrüfatı əmlakları siyahısı bitkiçilik (meyvə, tərəvəz və tarla məhsulları) və istixana məhsullarının, heyvanların (süd verən cins inəklər) və ev quşlarının əhəmiyyətli bir qismi daxil edilməklə genişləndirilə bilər;
- Həmin qərar əsasında, təbii fəlakətlərdən sadəcə bir hissəsi (dolu, yanğın, daşqın, sel, şaxta vurması) dövlət tərəfindən maliyyə yardımı göstərilən sığorta hadisələri sırasına daxil edilmişdir. Verilən sığorta

təminatı bitkiçilik məhsullarında yanğın, dolu, burulğan (tornado), fırtına, daşqın, sel, vulkan püskürməsi, şaxta vurması; istixana məhsullarında yanğın, dolu, burulğan, uçqun, fırtına; heyvanların sığortasında bütün növ heyvan xəstəlikləri, cərrahi müdaxilə, doğum, bütün növ qəzalar, ilan və zəhərli həşəratların sancması, yanğın və gün vurma nəticəsində meydana gələn ölüm yaxud məcburi kəsilmə, ot və ya digər yemlərdən zəhərlənmələr və ev quşlarının sığortasında isə bütün növ quş xəstəlikləri, məcburi kəsilmələr, bütün növ təbii fəlakətlər, bütün növ qəza və zəhərlənmələr və yanğın risklərini əhatə edə bilər;

- Qanunvericiliyə əsasən aqrar sahədə sığorta haqqının dövlət büdcəsinin vəsaitləri hesabına ödənilməli olan hissəsi hesablanmış ümumi sığorta haqqının 50%-i miqdarında müəyyənləşdirilmişdir. Dünya təcrübəsi nəzərə alınaraq bu dəstək 65-70% həcmində müəyyən edilə bilər.
- Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyi və Sahibkarlığa Kömək Milli Fondu tərəfindən fermerlərə verilən kreditlərin müqabilində onların istehsal etdikləri məhsulların sığortalanması təmin edilə bilər.

**Dissertasiyanın əsas məzmun və müddəaları müəllifin aşağıdakı əsərlərində öz əksini tapmışdır:**

1. Heydərov X.B. Azərbaycanda bazar iqtisadiyyatina keçid şəraitində aqrar sahənin idarəolunmasının təşkili / Qloballaşma prosesində Qafqaz və Mərkəzi Asiya II Beynəlxalq Konqres, Qafqaz Universiteti, 02-05 may 2007, s.832-837
2. Heydərov X.B. Bazar İqtisadiyyatına keçid şəraitində aqrar sahənin idarəolunmasının formalaşması // Azərbaycan Elmi Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun Elmi Əsərləri, I cild, 2008, s.221-226
3. Heydərov X.B. Aqrar sahədə idarəetmənin məqsədi və funksiyaları // Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutunun Elmi Əsərləri, №2, 2008 s.517-525
4. Heydərov X.B. Aqrar sahənin idarəedilməsində bəzi sosial məsələlər // Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu Elmi Əsərləri, №1, 2009, s. 216-220
5. Heydərov X.B. Regionların sosial-iqtisadi inkişafında yerli özünüidarəetmə orqanlarının rolu / "Beynəlxalq iqtisadi əlaqələrin inkişafında regionların rolu və əhəmiyyəti" beynəlxalq elmi-praktiki konfrans, Naxçıvan, 2009 s. 52-57

6. Heydərov X.B. Aqrar sahənin idarəolunmasında sosial yönümlülüyün təmin olunması məsələləri / Gənc Tədqiqatçıların Ümumrespublika Elmi Konfransı, Qafqaz Universiteti, Bakı, 2010. s.145-147

7. Heydərov X.B. Aqrar sahənin sosial-iqtisadi idarəedilməsində qiymət mexanizminin rolu / Qloballaşma Prosesində Qafqaz və Mərkəzi Asya III Beynəlxalq Konfrans, Qafqaz Universiteti, Bakı, 2010, s.183-184

8. Гейдаров Х.Б. Ценовой механизм как средство социально - экономического управления в аграрной области // Агросвит, Науково-практичный журнал, №4, Киев, 2014, с.70-75

9. Heydərov X.B. Aqrar sektorun ixrac potensialinin yüksəldilməsi məsələləri // Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu Elmi Əsərləri, №1, 2014. s.307-311

10. Heydərov X.B. Aqrar səhədə sosial yönümlü idarəetmənin təmin olunmasında qiymət mexanizminin rolu // Azərbaycan Aqrar Elmi Elmi Nəzəri Jurnal, №1, Bakı, 2014 s.150-154

**Ханлар Бейлер оглы Гейдаров**

## Усовершенствование социально-экономического управления в аграрной отрасли

## РЕЗЮМЕ

Диссертация состоит из введения, трех глав, заключения и списка использованной литературы. Во введении дисертации отражены актуальность темы, уровень изучения проблемы, цель и задачи, а также теоритическая, методологическая и информационная базы исследования, изложены научная новизна, практическая значимость, применение и апробации результатов работы.

В первой главе диссертации именуемой «Теоритические основы формирования и развития социально-экономического управления» исследованы суть и экономическое содержание процесса управления, важность учитывания социальных факторов в управлении, суть аграрной экономики и эго роль в комплексном развитии экономики. Кроме этого, в этой главе изложены специфические особенности аграрной отрасли, а также обосновано необходимость учитывания этих особенностей при организации социально-экономического управления.

Во второй главе под называнием «Анализ и оценка настоящего состояния социально-экономического управления в аграрной отрасли в Азербайджане» проведён многосторонний анализ современного состояния управления в аграрной отрасли. Исследовано социальное направление управления в аграрной отрасли с учётом таких социальных факторов как использование трудовыми резервами, безработица, бедность и доходы населения. В главе так же проанализировано настоящее состояние государственной поддержки аграрной отрасли.

В третьей главе диссертации именуемой «Основные направления совершенствования социально-экономического управления в аграрной отрасли» изложены взгляды и подходы к решению проблемы, касающихся некоторым направлениям совершенствования социально-экономического управления в аграрной отрасли. В этой главе исследованы и предложены направления совершенствования таких вопросов как социальные аспекты применения ценовой политики, основные направления финансово-кредитной поддержки, страхование сельскохозяйственных продуктов.

**Khanlar Baylar Heydarov**

## Improvement of socio-economic management in agriculture

## ABSTRACT

The dissertation work consists of introduction, three chapters, conclusion and recommendations, annexes and the list of the used literature. In introduction the actuality of the theme is proved, the degree of its level of scrutiny is specified, the purpose and duties, the object and subject, methodological and information bases, scientific novelty and practical value of the problem is showed, also approbation and application of the research results is introduced.

In the first chapter named as "Formation of socio-economic management and theoretical basis of its development" the meaning and economical content of management process, the importance of social factors in management, the economical content of agriculture and its role in complex development of economy were investigated by the author. Besides, the specific features of agriculture are discussed in this chapter and also it was tried to justify the importance of taking into consideration of these features in correct organization of socio-economic management.

In the second chapter named as “The current situation analyses and evaluation of socio-economic management in Azerbaijan agriculture” the current situation of management in agriculture was analysed from different aspects. The current situation of socio-economic management in agricultre was analyzed taking into consideration the issues like labour input usage, unemployement, poverty, population's income. Also in this chapter the current situation of state support to agriculture was analyzed.

In the third chapter named as “The main improvement directions of socio-economic management in agriculture” different thoughts and approaches to several improvement directions of socio-economic management were put forward by the author. In this chapter, the issues like social aspects in application of pricing mechanism, the main directions of financial- credit support to agriculture, insurance of agricultural goods were investigated and the improvement directions were shown.

Kağız formatı 60x84, 1/16
Tiraj 100
AMEA-nın mətbəəsində çap olunmuşdur.